# Vətəni qanı bahasına yaşadan zirvə qartalı

Bünyadəli Qulam oğlu Pələngov vətən sevgisini zərurət anında xalq, dövlət yolunda qanı bahasına təmənnasız xidmətə çevirməklə adını tarixə yazdı. Bünyadəli əsl vətəndaş, layiqli vətənpərvər şəxsiyyət idi. Elini, obasını şərəfli, şöhrətli görmək, insanların xoş güzəranına sevinmək onun zəngin mənəvi dünyasından qaynaqlanırdı.

1957-ci ildə Lerik rayonunun Züvüc kəndində dünyaya göz açmış Bünyadəli Pələngov 35 yaşında Qarabağın erməni dığalardan təmizlənməsi uğrunda gedən döyüşlərdə şəhid oldu. Belə də olmalı idi. Axı Bünyadəli üçün Vətən hər şeydən önəmli idi.

Sağlığında Bünyadəli harada olursa, hansı vəzifədə çalışırsa onun üçün bütün arzuların zirvəsində vətənin, xalqın xoşbəxtliyi dayanır. 1983-cü ildə sovet ordusunda gizir rütbəsində çalışır. Özünəməxsus



mənəvi dünyası, xasiyyətində mərdlik, saflıq, cəngavərlik ruhu müxtəlif millətlər arasında ona şərəf qazandırır. Bu vüqarlı, qürurlu, polad biləkli, son dərəcə qəlbi geniş azərbaycanlını hamı sevir, onun kimi olmağı arzulayır.

Tbilisi Ali Hərbi məktəbini, M.F.Axundov adına Azərbaycan Dövlət Pedaqoji Rus dili və ədəbiyyatı İnstitutunu bitirir. Baş leytenant rütbəsi ilə Daxili İşlər Nazirliyinin daxili qoşunlarında N saylı hərbi hissədə komandirin təchizat işləri üzrə müavini olur. Düşmənin Azərbaycan torpaqlarına hücumu zamanı Bünyadəli əlinə silah alıb vətənin müdafiəsinə yollanır. Naxçıvan Muxtar Respublikasının Sədərək döyüşlərində iştirak edir. Düşmənə layiqli cavab verməklə əsl qəhrəmanlıq nümunəsi göstərir. Onun gücünü duyan erməni dığaların arasına vahimə düşür. Bünyadəli yüksək döyüş keyfiyyətləri nümayış etməklə, həm də əsgərlərin mənəvi dayağına, döyüşdən-döyüşə ilham verən qüvvəsinə dönür.

1992-ci ildə Bünyadəli Qarabağa gəlir. Naxçivanik kəndi uğrunda gedən qanlı döyüşlərdə düşmənlə ölüm-dirim savaşına atılır. Bacarıqlı, təcrübəli bir komandir kimi bütün əməliyyatları uğurlu alınır. Həm də yoldaşlarını dəfələrlə mühasirədən qurtarır. 1992-ci il iyunun 26-da düşmən yenidən məkrli niyyətini həyata keçirməyə qərara verir. Aranzəmin yüksəkliyində qanlı müharibə başlanır. Bünyadəli dəstəsi ilə xeyli sayda düşmənin canlı qüvvəsini məhv etsə də, özü də şəhidlik zirvəsinə ucalır. Onun nəşi Şəhidlər xiyabanında torpağa tapşırılır. Ölümündən sonra ulu öndər Heydər Əliyev tərəfindən İgidliyə görə qızıl medala layiq görülür. Təhsil aldığı Lerik rayon, Züvüc kənd orta məktəbi və Suraxanı rayon 286 saylı tam orta məktəbi onun adını daşıyır.

Bəli, müdriklər beşiyi, dahilər diyarı Azərbaycan igid oğlunun şərəfini bundan sonra da uca tutur və həmişə xalq tərəfindən məhəbbətlə xatırlanır.

**Zəfər ORUCOĞLU,**
Azərbaycan Jurnalistlər Birliyinin üzvü

İki sahil.- 2019.- 28 iyun.- S.3